*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 24 oktyabr 2018-ci il № 82 (2298) Qiyməti 25 qəpik

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# "Star Rafineri"nin açılışı Türkiyə-Azərbaycan birliyinin, həmrəyliyinin, dostluğunun əlamətidir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimində iştirak etmək üçün Türkiyə Respublikasına işgüzar səfər edib. Oktyabrın 19-da Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər.*




Tədbirdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə-Azərbaycan dostluğunun və işbirliyinin rəmzi olan hadisənin önəmindən danışaraq iki ölkə arasında qardaşlığın möhkəm bağlara əsaslandığını qeyd edib. "Bu, bir daha onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə uğurla çatırıq. Bir daha onu göstərir ki, belə nəhəng layihələrin icrası üçün Türkiyə və Azərbaycan liderlərində güclü siyasi iradə var. Bu layihənin həyata keçməsinin əsas səbəbi Türkiyə-Azərbaycan dostluğu, qardaşlığıdır".

Prezident İlham Əliyev çıxışında onu da vurğulayıb ki, bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. "Bu da təbiidir, çünki əsrlər boyu biz birlikdə yaşamışıq, bir yerdə olmuşuq. Tarixin bəzi məqamları bizi bir-birimizdən ayırıb, amma bu, müvəqqəti xarakter daşıyırdı. Biz yüz il bundan əvvəl birlikdə idik, ondan əvvəlki dövrdə də birlikdə idik, bu gün də bir yerdəyik.

Mən qeyd etməliyəm ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla Bakıda ötən ay keçirilmiş möhtəşəm hərbi paradda iştirak etdik. Bu hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Bakının ən böyük meydanı olan Azadlıq meydanından şərəflə keçmişlər. 1918-ci ilin 15 sentyabrı tarixi bir gündür. Məhz o gündə Bakı şəhəri Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusu və yeni yaradılmış Azərbaycan Milli Ordusu tərəfindən işğaldan azad edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində Cümhuriyyət yaranmışdır. Ancaq Bakı, bizim qədim tarixi şəhərimiz işğal altında idi. Yeni yaradılmış hökumət Gəncə şəhərində fəaliyyət göstərirdi. Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun Gəncədən Bakıya möhtəşəm yürüşü və hərbi zəfəri nəticəsində Bakı işğalçılardan azad edildi və öz sahibinə, Azərbaycan xalqına qaytarıldı. O gündən bir neçə gün sonra Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan edilmişdir. Bu, unudulmaz tarixdir və yüz il o tarixdən sonra Türkiyə və Azərbaycan prezidentlərinin iştirakı ilə Bakıda təşkil edilmiş möhtəşəm mərasim bizim birliyimizi bir daha göstərdi. Göstərdi ki, bizim birliyimiz sarsılmazdır, bizim birliyimiz əbədidir, yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də bir yerdəyik".

Sonda Türkiyə xalqına tərəqqi və rifah arzulayan Prezident İlham Əliyev "Star Rafineri"nin açılışı timsalında birliyimizin, həmrəyliyimizin, dostluğumuzun əlamətini gördüyünü qeyd edib. Əminliyini bildirib ki, bundan sonra da Türkiyə və Azərbaycan yalnız uğurlar yolu ilə gedəcək.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışının əvvəlində Azərbaycanı 18 Oktyabr Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edib və təxminən bir ay bundan əvvəl Bakının Qafqaz İslam Ordusu tərəfindən azad edilməsinin 100 illiyi tədbirləri ilə əlaqədar Azərbaycana səfər etməsini xatırlayıb. "Bakıda şanlı Türkiyə və Azərbaycan ordularının hərbi paradını qardaşlarımızla birlikdə həyəcan və qürurla izlədik. Türkiyə hərbi birlikləri azərbaycanlı qardaşları ilə keçmişdə necə çiyin-çiyinə vuruşmuşdularsa, həmin gün də eləcə çiyin-çiyinə addımladılar. Bu parad iki ölkə arasında əməkdaşlığın, iki dövlət, bir millət olmağımızın göstəricisi idi".

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyə və Azərbaycanın bölgəmizin təhlükəsizliyinin və sabitliyinin əsas faktorları olduğunu diqqətə çatdırıb və bu amilin artıq hamı tərəfindən qəbul edildiyini vurğulayıb. "Bu iki ölkənin qoşulmadığı, razı olmadığı və dəstək vermədiyi heç bir layihə hədəfinə çata bilməz. Bununla yanaşı, Azərbaycan torpaqlarının 20 faizinin əsrin dörddəbiri qədər işğal altında qalması qəbul edilə bilməz. Ölkəmizin və Azərbaycanın bu münaqişənin həlli istiqamətində göstərdiyi təşəbbüslərə beynəlxalq ictimaiyyət daha səssiz qala bilməz. BMT başda olmaqla, regional və qlobal problemlərin həlli üçün qurulan təşkilatların bu səssizliyi onların özlərini də məhvə sürükləyir. Haqq-ədalət duyğusundan uzaq, içi boş olan beynəlxalq qurumun heç bir cəmiyyətin və şəxsin gözündə etibarı qalmaz. Biz, beynəlxalq ictimaiyyətin Qarabağ məsələsi başda olmaqla, dünyada ortaya çıxan haqsızlıqlara "Dur!" deməsini gözləyirik. Sabitliyin, əmin-amanlığın, rifahın təmin olunması qaydaları istisnasız bütün dövlətlər üçün tətbiq edilməzsə, kimsə gələcəyinə əminliklə baxa bilməz. Türkiyə və Azərbaycan olaraq biz istənilən vəziyyətdə və şərtlər altında inandığımız dəyərlər uğrunda apardığımız birgə mübarizəni davam etdirəcəyik. Allahın izni ilə bu müqəddəs mübarizəmizdə müvəffəqiyyət qazanacağıq".

Prezident İlham Əliyevin Türkiyə Respublikasına bu səfəri də təsdiq edir ki, səfər nəticəsində yaranan mənzərə dünyanın içində olduğu bədbinliyə, qeyri-müəyyənliyə ən gözəl həll formasıdır. Bu onu göstərir ki, hər iki ölkə arasındakı dostluq, birlik nəticəsində Türkiyə və Azərbaycan qarşılıqlı uzaqgörənliklə ortaq hədəflərə doğru irəliləyir, regional və qlobal sabitliyə, əmin-amanlığa böyük töhfə verirlər. Bu gün iki qardaş ölkə arasındakı əlaqələr dünyaya ölkələrinin maraqlarının təmin olunmasının həmrəylikdən, rəqabətlilik mühitindən, güclü əməkdaşlıqdan keçdiyini bir daha çox aydın şəkildə ortaya qoyur.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

Ordu quruculuğu

# "Bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir"

*Müstəqilliyimizlə yaşıd olan ordumuz çox çətin, mürəkkəb şəraitdə yenidən formalaşıb. Dövlətimiz ordunu hərtərəfli möhkəmlətməyə, onu müasir döyüş texnikası ilə təchiz etməyə, hərbi qulluqçuların sosial-məişət şəraitinin yüksək səviyyəyə çatdırılmasına daim qayğı göstərir. Ölkənin təhlükəsizliyinin qarantı olan nizami ordunun yaradılması və formalaşması prosesi dövlət quruculuğunun tərkib hissəsidir. Belə ki, dövlət quruculuğu daim inkişaf etdikcə ordu da möhkəmlənir. Unutmayaq ki, ordumuzun bugünkü səviyyəyə çatdırılması, onun döyüş qabiliyyətinin artırılması böyük siyasi iradə və gərgin zəhmət hesabına başa gəlib.*



Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev dövlət quruculuğunda ordu ilə bağlı məsələlərin mahiyyətini açıqlayaraq bildirir ki, orduya hər il ayrılan xərclər artır. "Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Mən bəyan edirəm ki, orduya xərclənən vəsait bundan sonra da artacaqdır, biz ordumuzun maddi-texniki bazasını daha da gücləndirməliyik. Bütün bunları etmək üçün bizdə imkanlar var. Siyasi iradə var, Azərbaycanda sabitlik var".

Dövlətimizin iqtisadi imkanları artdıqca orduya daha çox vəsait ayrılmasına şərait yaranır. Silahlı Qüvvələrin Ali Baş Komandanı ölkənin müxtəlif bölgələrinə səfərləri zamanı hərbi hissələrdə olur, çətin şəraitdə Vətənə xidmət edən hərbi qulluqçuların əməyini yüksək qiymətləndirir.



Həqiqətən də, ordu dövlətin əsas atributlarından biri, müstəqilliyimizin və təhlükəsizliyimizin polad sipəri, xalqımızın yenilməz dayağıdır. Müharibə şəraitində yaşayan, torpaqlarının bir hissəsi işğal altında olan bir ölkə üçün güclü ordunun mövcudluğu xüsusilə önəmlidir. Azərbaycanın qarşısında duran ən mühüm məsələ Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, torpaqlarımızın işğaldan azad edilməsi və bir milyondan artıq soydaşımızın öz doğma yurdlarına qayıtmasıdır. Dövlətimizin başçısı problemin sülh yolu ilə həllinə çalışaraq dəfələrlə bəyan edib ki, Azərbaycan öz torpaqlarını itirilməsi ilə heç vaxt barışmayacaq, işğal olunmuş ərazilər nəyin bahasına olursa-olsun, azad ediləcək. Bunun üçün ordumuzun gücü daha da artırılır və qüdrətli müdafiə sənayesi yaradılır.

Bu gün ölkəmizdə ən müasir silahlar alınır və ordumuzun ixtiyarına verilir. Ölkənin müdafiə sənayesi müasir texnologiyalar əsasında durmadan inkişaf edir. Müxtəlif təyinatlı silah-sursatlar, zirehli texnikalar istehsal edilir. Ona görə də Qafqazın ən güclü, modern, hazırlıqlı ordusu hesab edilən Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarını düşmən tapdağından azad etməyə qadirdir. Aprel qələbəsi bunu bir daha təsdiqlədi. 2016-cı ilin aprelin əvvəllərində qalib Azərbaycan Ordusunun vətənpərvər, cəsur əsgər və zabitləri düşmənin basqınının qarşısını əks-həmlə əməliyyatı keçirərək aldı və 2 min hektar ərazini işğaldan azad etdi. Mühüm əhəmiyyətli yüksəkliklərə qəhrəman hərbçilərimizin rəşadəti sayəsində üçrəngli Azərbaycan bayrağı sancıldı. Lələtəpə yüksəkliyi azad edilməklə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə qayıdış bərpa edildi. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə bu kənd yenidən bərpa olundu. Cocuq mərcanlılar öz doğma kəndlərinə qayıtdılar. Onlar bu gün ordumuza güvənərək sakit, dinc yaşamalarına davam edirlər.

Ölkəmizin ordu quruculuğunda ordu-xalq birliyi və ordu-cəmiyyət əlaqələri yüksək səviyyədə qurulub. Bu sarsılmaz birlik aprel döyüşləri zamanı bir daha özünü göstərdi. "Aprel hadisələri xalqımızı daha da birləşdirdi. Azərbaycan xalqı dövlətə, ordumuza çox böyük dəstək göstərdi... " deyən ölkə rəhbəri Azərbaycan Ordusunun xalqdan böyük dəstək aldığını bir daha bəyan etdi. O zaman xalq Ali Baş Komandanının ətrafında sıx birləşdi, ordusuna güvəndi və aprel zəfərini bayram etdi.

Hərbi hissələrdə "Açıq qapı" günlərinin keçirilməsi ordu-cəmiyyət əlaqələrinin daha da inkişaf etdirilməsinə və möhkəmlənməsinə bariz nümunədir.

Azərbaycan Prezidenti, Ali Baş Komandanın daim diqqət və qayğısını görən ordumuzun şəxsi heyəti böyük ruh yüksəkliyi ilə daim peşəkarlığını və hazırlığını artırır. Daha müasir hərbi şəhərciklərin tikilib istifadəyə verilməsi, şəxsi heyətin sosial-məişət şəraitinin günü-gündən yaxşılaşdırılması Vətən müdafiəçilərinin ruh yüksəkliyinin artırılmasına xidmət edən amillərdir.

Qürurla deyə bilərik ki, aprel döyüşləri və bu ilin mayında Naxçıvanda Günnüt zəfəri Ali Baş Komandanımızın qətiyyətini hiss edən Azərbaycan Ordusunun Böyük Qələbəyə əminliyinin mesajıdır.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və ordu rəhbərliyinin tez-tez cəbhə xəttində şəxsi heyətlə görüşməsi, ordunun döyüş hazırlıqlarının yoxlanılması, fərqlənən hərbi qulluqçuların qiymətli hədiyyələrlə mükafatlandırılması onların döyüş ruhunu daha da artırır.

Son beş ildə keçirilən irimiqyaslı birgə əməliyyat-taktiki təlimlər şəxsi heyətin döyüş qabiliyyətinin möhkəmlənməsində mühüm əhəmiyyət kəsb edir. Bu təlimlərdə qarşıya qoyulan məqsədlərə nail olunur, vacib əməliyyat tapşırıqları yerinə yetirilir və nəhayət, təlimə cəlb edilən bütün şəxsi heyət yüksək döyüş əzmi nümayiş etdirir.

Bu il Azərbaycan Ordusunun və Bakının işğaldan azad olunmasının 100 illiyi ilə əlaqədar Azadlıq meydanında keçirilən paradlar ordumuzun möhtəşəmliyini, dövlətimizin hərbi gücünü, müdafiə potensialını bütün dünyaya bir daha göstərdi. Hər iki paradda Azərbaycan Ordusunun arsenalında yer alan müasir silahsursatlar, o cümlədən yerli sənaye istehsalına daxil olan texnikalar nümayiş olundu.



Qısa müddətdə hərbi sənayesi formalaşan Azərbaycanda bu gün ən müasir silahlar, döyüş sursatları və hərbi texnikalar istehsal olunur. Müharibə şəraitində olan bir ölkənin müdafiə qabiliyyəti öz sənaye istehsalının hesabına gücləndirilir. Bu istehsal prosesi durmadan təkmilləşdirilir. Təsadüfi deyil ki, Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2018" Üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi çərçivəsində Müdafiə Nazirliyi ilə Müdafiə Sənayesi Nazirliyi arasında yeni anlaşma memorandumu imzalandı. Dövlət başçımızın sərgi iştirakçılarına ünvanladığı məktubda deyilir: "Ərazisinin 20 faizi işğal altında olan Azərbaycan Respublikası müdafiə qabiliyyətinin artırılmasına və Silahlı Qüvvələrinin maddi-texniki təchizatının gücləndirilməsinə daim xüsusi önəm verir. Azərbaycan hərbi-texniki sahədə dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığını inkişaf etdirməklə yanaşı, güclü müdafiə sənayesi yaratmışdır və bu sərgi müdafiə sənayemizin əldə etdiyi nailiyyətlərin tanıdılması baxımından da mühüm əhəmiyyət kəsb edir".

Oktyabrın 9-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı digər prioritet məsələlərlə yanaşı, ordu quruculuğu məsələlərinə də toxunaraq qeyd etdi ki, bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib, bu proses davam etdirilir. "Biz bundan sonra da ən müasir hərbi texnikanı alacağıq, yeni kontraktlar imzalanır... Bir sözlə, bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında göstərib və nümayiş etdirib."

Bəli, Azərbaycanın bütün çətinlikləri qətiyyətlə dəf etmək qüdrətinə və çevik idarəetmə sisteminə malik güclü, sarsılmaz ordusu var. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuzun Avropa və dünya standartlarına tam uyğunlaşdırılması, daha güclü və müasir silahlarla, hərbi texniki qurğularla təchiz edilməsi sahəsində səmərəli tədbirlər həyata keçirilir. İnanırıq ki, tezliklə Azərbaycan Ordusunun möhtəşəm Qələbə paradı Qarabağımızda, Şuşamızda keçiriləcək və xalqımız Böyük Zəfər bayramını qeyd edəcək!

**"Azərbaycan Ordusu"**

# Ombudsman aparatının nümayəndələri hərbi hissələri ziyarət ediblər



Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İnsan hüquqları üzrə müvəkkilin birgə planına əsasən Ombudsman aparatının nümayəndələri mühəndis-istehkam və kimya təyinatlı hərbi hissələri ziyarət ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ombudsman aparatının nümayəndələri Fəzail Həsənov və Murad Babayev hərbi qulluqçuların məişət şəraiti ilə tanış olub, onlarla rəftar və hərbi hissələrdə insan hüquqlarının müdafiəsi vəziyyətini öyrənib və şəxsi heyəti maraqlandıran sualları cavablandırıblar.

Aparatın əməkdaşları əsgər yataqxanaları, yeməkxanalar, tibb məntəqələri, məişət və digər inzibatı otaqlara baxış keçirərək qidanın və müalicə işinin keyfiyyəti, asudə vaxtın keçirilməsi üçün yaradılan şərait, şəxsi heyətlə vətənpərvərlik və təlim-tərbiyə sahəsində aparılan işi müsbət qiymətləndiriblər.



*Ön xətdən reportaj*

# Bizi qələbə müjdəli sabahlar gözləyir!

*Bir payız günündə səfərimiz torpaq sevgisinin hərarətini, torpağın ürək döyüntüsünü daha çox duyduğumuz sərhəddədi. Sərhədə, dağlara, dağlar qoynunda yerləşən səngərlərə doğru irəlilədikcə hava dəyişir. Ətrafa nəzər yetirdikcə adama elə gəlir ki, göz gördüyü qədər insan yaşayış məskənləri səpələnib. Çox əsrarəngiz mənzərədir. Dolanbac yollar ilan kimi qıvrılır. Yol boyu hər tərəfdə əkin tarlaları, otlaqlar, biçənəklər bir-birini əvəz edir; burada təbiətin bütün rənglərini görmək olur. Hiss olunur ki, payız təbiətə daha çox diktə etməkdədir. Sanki dağların döşlərinə, yamaclara, təpələrə rəngbərəng xalılar-xalçalar döşənib. Bu da sərhəd... Bu da səngər... Bu da düşmən çəpəri, sərhədinin keşiyində duran şanlı Azərbaycan Ordusunun əsgəri...*

Hər dəfə olduğu kimi, Azərbaycan Ordusunun zabiti, giziri, əsgəri ilə görüşmək qürurvericidir. Ancaq bu görüş və görüşdən doğan təəssüratlar fərqlidir. Sərhəddə olmağımıza baxmayaraq, seyr etdiyimiz torpaqlar da əzəli Azərbaycan torpaqlarıdır. Burada bir fikir səni rahat buraxmır. Nə vaxt səngərləri sərhədlər əvəz edəcək... Nə vaxt Azərbaycan haqqı olduğuna sahib olacaq... Nə vaxt Azərbaycan əsgəri sərhəddə duraraq dövlətinin, xalqının, torpaqlarının təhlükəsizliyini təmin edəcək... Aprel döyüşləri, Günnüt zəfəri də sübut etdi ki, tezliklə xalqın həsrətinə son qoyulacaq, tezliklə arzularımız çin olacaq...

Sükutu hərbi hissənin zabiti Firudin Mikayılov pozaraq bildirir ki, sərhəd təkcə düşmənlə üz-üzə dayandığımız məkan deyil. "Ümummilli Liderimizin sözləri ilə desək, "Sərhəd hər bir müstəqil dövlət üçün çox əzizdir, vacib bir sahədir və təbiidir ki, sərhədin qorunmasında xidmət göstərən hər kəs xalqımızın hörmət və ehtiramına layiqdir". Bu oğullar ona görə hörmət və ehtirama layiqdirlər ki, onlar Vətənin keşiyini çəkməklə yanaşı, cəsur, inamlı və məğrur şəkildə düşmənin bütün təxribatlarının qarşısını alırlar."

Leytenant Elvin Tağıyev isə qeyd edir ki, bu gün sərhəddə - ön xətdə xalqın müdafiəsi üçün dayanmış əsgər və zabitlərimizin məqsədi, vəzifəsi birdir - Azərbaycan xalqının səbirsizliklə gözlədiyi qələbəni təmin etmək. "Hər bir əsgərimiz yaxşı başa düşür ki, şəhidlərimizin qanı yerdə qalmamalı, ana-bacılarımızın qisası alınmalı, ən əsası, üçrəngli bayrağımız Azərbaycanın bütün ərazisində



dalğalanmalıdır. Şəxsi heyətimiz qarşıya qoyulan vəzifəni yerinə yetirməyə hər zaman hazırdır və qadirdir."

Sabirabad rayonundan hərbi xidmətə çağırılan əsgər Səbuhi Kərimov deyir ki, xidmət etdiyi müddətdə əsgər kimi üzərinə düşən bütün tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışıb. "Qarşıda gördüyünüz dağın o tərəfi də tarixi Azərbaycan torpaqlarıdır. Bütün tarixi torpaqlarımızın geri qaytarılması arzusundayam. İnanıram ki, bu arzum tezliklə həyata keçəcək".

Əsgər Rahil Quliyev yoldaşının sözünü təsdiqləyərək deyir ki, Vətən, hər nəyin bahasına olursa-olsun, müdafiə etmək məcburiyyətində olduğumuz, ana dediyimiz, şəhidlərimizin uğrunda can verib, qanlarıyla suladığı, millətimizin üzərində qalan, üzərində xoşbəxt və firavan yaşadığımız yurdumuzu, onun üzərində atalarımızın qurduqları sivilizasiya və mədəniyyət xəzinələrini, dilimizi, mənəviyyatımızı qoruya bilmək, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün onu müdafiə etməyə hər an hazır olmalıyıq", - deyə əsgər Turan Hüseynli bildirir.

"Ata-babalarımızdan miras qalan, üzərində xoşbəxt və firavan yaşadığımız torpaq parçasıdır. "Vətəni müdafiə etmək, onun uğrunda qan tökmək, canımızı fəda etmək vətəndaşlıq və əsgəri borcumuzdur."

Manqa komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Ələsgər Çarçıyev bu gün dövlət qarşısında ən vacib borcunu yerinə yetirdiyini bildirir. Aprel döyüşlərini yada salan həmsöhbətim qardaşı gizir Arzuman Çarçıyevin həmin döyüşlərin iştirakçısı olduğunu da vurğuladı. "Ən böyük arzum həmin döyüşdə həlak olan şəhidlərimizin simasında bütün şəhidlərimizin qanını yerdə qoymamaqdır. Aprel döyüşləri bir daha ordumuzun güc və bacarığını düşmənə sübut etdi. Düşmən bildi ki, onun qarşısında keçən əsrin sonlarındakı kimi pərakəndə ordu yox, daha güclü, daha hazırlıqlı, müasir silah və texnikalarla təmin olunmuş bir ordu dayanıb. Bu ilin mayında Azərbaycan Ordusunun qazandığı Günnüt zəfəri də şəxsi heyətimizin qazandığı döyüş təcrübəsinin təsdiqi oldu."

"Ermənilər də yaxşı bilir ki, aprel və Günnüt zəfərləri Azərbaycan əsgərinin son zəfərləri deyil", - deyə Şəki rayonundan hərbi xidmətə çağırılan əsgər Əmrah Məmmədov bildirir. Bu zəfərlərin tezliklə davamı gələcək.

Digər hərbi qulluqçular da əsgər yoldaşının fikrini təsdiqlədilər və qeyd etdilər ki, Azərbaycan Ordusunun inkişafı Ağdamdan, Xankəndidən, Şuşadan keçən Qələbənin sevincini yaşamağa, işğalda olan digər tarixi torpaqlarımızda da Azərbaycan bayrağını dalğalandırmağa imkan verəcək.

Söhbətimizin bu yerində mayor Firudin Musayev Azərbaycan Ordusunun şəxsi heyətinin nail olduğu inkişaf nəticəsində möhkəm birlik əldə etdiyini əminliklə qeyd edir. Bildirir ki, əldə etdiyimiz qələbələr bu birliyi daha da möhkəmləndirdi: "Tariximizə dayanan, keçmişimizə bağlı olan bir xalq kimi formalaşmışıq. İllər ötsə də, zaman keçsə də, heç kim bizim Vətən sevgimizi nə azalda, nə də bundan məhrum edə bilər. Qanımız, ruhumuz vətənpərvərliklə yoğrulub. Qələbələrin nəticəsində ürəyimizdəki ümid qığılcımları, qisas hissi, birlik duyğusu sanki silkələndi. Bir olduq. Birliyimizin fərqinə vardıq. Əsgərlərimiz böyük ruh yüksəkliyi ilə hər an önə atılmağa hazırdırlar".

Söylənilən bu fikirlərin arxasında Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhu, Qələbə ruhu dayanır. Qələbə ruhlu igid oğullarımız demək istəyir ki, gec və ya tez mütləq işğal altındakı torpaqlarımızı azad edəcəyik, şəhidlərimizin qanını yerdə qoymayacağıq və düşmənin layiqli cəzasını verəcəyik.

Dövlətimizin, ordumuzun gücünə inanan Azərbaycan xalqı əmindir ki, tezliklə Qələbə müjdəli sabahların şahidi olacaq. Qələbə müjdəli sabahlar bizi gözləyir!

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Raket və artilleriya birləşmələri döyüş atışlı təlimlər keçirir



*Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci ilin hazırlıq planına uyğun olaraq, raket və artilleriya birləşmələrinin döyüş atışlı təlimləri keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərdə artilleriya bölmələri marş icra etmə, cəmləşmə rayonlarına çıxma, atəş və start mövqelərini tutma, döyüş atışlarının icrası və digər tapşırıqların yerinə yetirilməsi üzrə məşqlər edirlər.



## Silahlı Qüvvələrin Baş Qərargah rəisi İsrailə rəsmi səfərə yola düşüb

*Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov israilli həmkarı general-leytenant Qadi Ayzenkotun dəvəti ilə oktyabrın 23-də Tel-Əviv şəhərinə yola düşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, rəsmi səfər çərçivəsində general-polkovnik N.Sadıkovun İsrailin Müdafiə naziri, Baş Qərargah rəisi və digər rəsmi şəxslərlə görüşü, müdafiə sənayesi sahəsində fəaliyyət göstərən müəssisələri ziyarət etməsi nəzərdə tutulub.

## HHM bölmələrinin təlimləri davam edir

*Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, Hava hücumundan müdafiə (HHM) bölmələrinin müxtəlif təlim mərkəzlərində keçirilən taktiki təlimləri davam edir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərin növbəti mərhələsində "OSA" zenit-raket komplekslərindən döyüş atışları icra edən HHM bölmələri şərti düşmənin hava hədəflərini məhv ediblər.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***23 oktyabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Nəmirli, Qaraqaşlı, Kəngərli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Neçə müddətdi bir mətləb düşüncələrimi tərpətməkdədi: minnətdarlıq. İllərlə müxtəlif vaxtlarda müxtəlif məqamlarda minnətdarlıq eşidəndə də, minnətdarlıq edəndə də xoş ovqat yaşamaq da, yaşatmaq da həmin anları ömürləşdirməkdi. Minnətdarlıq bu qüdrətə malikdi. Hər ikisi, Musa Yaqub demişkən, dünyanın qara daşını göyərməyə qadir olan istəkdi, niyyətdi minnətdarlıq. Dədə Qorqud əyyamından bu yana belə istəyə, belə niyyətə muraz deyirlər. Hər birimiz bu murazın, niyyətin vətəndaşıyıq, hər birimiz Vətənləşən məhəbbətin vətəndaşıyıq. Muraz Vətənə bağlıdırsa, "mayəsi, qayəsi" (B.Vahabzadə) Vətəndirsə, daha möhtəşəm olur...*

Düşüncələr

# Minnətdarlıq

## və yaxud könül ziyarəti

1992-ci ilin qışında Ağdam hospitalında bənzərsiz bir məqam yaşamışdıq. Xalq artisti Mələkxanım Əyyubovanın ifasında muğamlarımız, xalq havalarımız müalicə olunan hərbi qulluqçularımıza məlhəmiydi elə bil. Heç kim təkəm-seyrək yağan qara məhəl qoymurdu. "Çahargah", "Osmanı",... uzaqlardan eşidilən atəş səslərini batırırdı. Bu ara ayağının birini itirmiş bir qazi meydana çıxmışdı. Bir qədər ərklə "Cəngi" çalınsın demişdi. Şərifin bir ayaqla rəqsi hamını riqqətləndirmişdi. Az sonra Mələkxanım Əyyubova da, Möhlət Müslümov da, Ədalət Vəzirov da Şərifi əhatələmişdi. Bu isti, bu səmimi münasibət minnətdarlığıydı. Bu minnətdarlıq keçmiş döyüşçüyə milli-xəlqi ruhun minnətdarlığıydı. Onda Şərif "Cıdır düzündə daha şövqlə rəqs edəcəyik..." demişdi. Bir daha əmin olmuşduq ki, xalq minnətdar olacağı hərbi qulluqçulara bir halayda birləşəcək.

2017-ci ilin mayında Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun xatirəsinə həsr olunmuş tədbirdə (Tovuz rayonu) 10-12 yaşlı uşağın çıxışını, şəhidlərə xitabən deyilən "Hər birimiz hər birimizə minnətdarıq" kəlmələrini unutmamışam, unutmaram. Bu kəlmələri "Sizin şəhidliyiniz dövlətçiliyimizin yaşaması deməkdir" - kimi qəbul etmişdim və bu minnətdarlığına görə məktəbliyə minnətdarlığımı bildirmişdim, əzizim kimi bağrıma basmışdım. Tarix mühafizəkardı, tarix heç nəyi unutmur. O məktəblinin düşüncələri də tarixin yaddaşından silinməyəcək. Onda tarix görmüşdü ki, xalq yaxşılıq etməyi də bacarır, bunu səmimiyyətlə dəyərləndirməyi də...



Azərbaycan həm də ona görə güclü, qüdrətli dövlətdir ki, onun Prezidenti Vətən naminə, dövlət, dövlətçilik naminə yaşayanların nə özünü unudur, nə sözünü, nə də Vətən borcunu necə yerinə yetirdiyini...

Tərtərin Çaylı kəndi Mübariz İbrahimovun qəhrəmanlığının ünvanı kimi tanındı.

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun yazdığı məktub da, məktubun mətni də hər birimizin yaddaşındadı. Bu məktubu vətənsevərlik manifesti adlandırardım. Bu məktubun minlərlə çağırışçının hərbi xidmət andı olduğuna zərrəcə şübhəm yoxdu. O vaxtlar bir məktəblinin dedikləri indi də yaddaşımdadı: Biz əsgər olana qədər torpaqlarımız işğaldan azad ediləcək. Mübariz İbrahimovun qəhrəmanlığını göstərə bilməyəcəyik, ancaq Vətəni Mübariz İbrahimov kimi sevəcəyik...". Məktəblinin bu fikirlərini Mübariz İbrahimovun ruhuna minnətdarlıq bilmişdim. İllərdi belə eşidirik, illərlə belə eşidəcəyik...

Biləsuvar rayonunda Zəhmətabad-Bədilli-Xırmanlı-Əliabad avtomobil yolunun istifadəyə verilməsi tədbirində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı da tarixdi. Ölkə başçısının dedikləri minnətdarlıq idi: "...Bu gün bizim tədbirdə Milli Qəhrəman Mübariz İbrahimovun atası iştirak edir. Ona mən xüsusi minnətdarlığımı bildirmək istəyirəm ki, onun ailəsində Milli Qəhrəman, bizim unudulmaz əsgərimiz, qəhrəmanımız Mübariz böyüyüb, tərbiyə alıb, Vətən uğrunda döyüşüb, Vətən uğrunda həlak olub, şəhid olub. Təkbaşına bir çox işğalçını məhv edərək şəhidlik zirvəsinə ucalıbdır. O bilirdi ki, ölümə gedir, bilirdi ki, o döyüşdən sağ-salamat çıxmayacaq. Buna baxmayaraq canından keçdi və düşmənə Azərbaycan əsgərinin hansı keyfiyyətə malik olduğunu nümayiş etdirdi. Biləsuvar rayonu fəxr edə bilər ki, belə gözəl övlad yetişdirib və bu gün Azərbaycan Ordusunda vətənpərvərlik ruhunun yüksək səviyyədə olması Mübariz kimi övladlarımızın addımları, qəhrəmanlığı nəticəsində olmuşdur"...

Bu minnətdarlıq Ağakərim kişiyə, əliabadlılara, biləsuvarlılara minnətdarlıqdı.

Mübariz yazmışdı: *"Canım, atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam, ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin"...*

Bu, Azərbaycan hərbçisinin Vətən sevgisinin göstəricisi kimi əbədiyyən yaşayacaq, yaşadılacaq. Azərbaycan Respublikasının Prezidenti çıxışında bu məqamı da xatırladır: "...O bilirdi ki, ölümə gedir, bilirdi ki, o döyüşdən sağ-salamat çıxmayacaq..." - qətiyyətini dövlət unutmur, unutmayacaq. Bu, Azərbaycan əsgərinin qəhrəmanlıq amalının davamıydı - Etibar İsmayılov özünü düşmən tankının altına atmışdı, Rasim İbrahimov əsir düşməmək üçün özünü qumbara ilə partlatmışdı, Qubadlının Qazançı kəndində leytenant Etibar Namazov və əsgərləri son nəfəsinədək döyüşmüşdü, Vəzir Orucov, Şirin Mirzəyev, Baloğlan Süleymanov,... yüzlərlə əsgərimiz, zabitimiz qəhrəmanlıqla şəhid olub. Mübariz İbrahimov onların amalının davamçısıydı, özünəməxsus qəhrəmanlıqla şəhid oldu. Ölkə başçısının Mübariz İbrahimovun atası Ağakərim kişiyə xüsusi minnətdarlığının çağırışçıların vətənsevərlik tərbiyəsində, xidmət edənlərin mənəvi-psixoloji hazırlığında olduqca təsirli olacağına əminik. Hamı bilir ki, Vətəni sevənlər, Vətən naminə şəhid olanlar unudulmur, unudulmayacaq. Azərbaycan həm də buna görə güclü, qüdrətli, bəşəri dövlətdi...

Hamımız qürurla deyirik ki, belə bir dövlətin vətəndaşı olmaq səadətdi. Bu səadəti dərk etmək, ömür payını bu səadətin işığında yaşamaq xoşbəxtlikdi...

Minnətdarıq. Türk şairi demişkən, kimə, nəyə minnətdar olduğumuzu bilənlərə salam olsun. Bu salam da könül ziyarətidi...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# "Tərxis olunsaq da, Böyük Qələbəyə kimi Vətənin əsgəriyik"

*"N" hərbi hissəsində xidmət müddətini başa vuran, Vətən qarşısında müqəddəs övladlıq borclarını layiqincə yerinə yetirən əsgərlərimizə ordu həyatında, hərbi xidmət dövründə qazandıqları vərdişləri öyrənmək məqsədilə belə bir sualla müraciət etdik: "Ordu həyatı sizə nə verdi?" Hər kəs bu sualı müxtəlif aspektlərdən cavablandırmağa çalışdı.*



Əsgər Kamran Rüstəmov doğma rayonu Samuxa başucalığı ilə qayıdır. Ordunu əsl kişilik məktəbi adlandıran müsahibim burada bir sıra insani keyfiyyətlərə - dözümlülük, mərdlik kimi xüsusiyyətlərə yiyələndiyini qeyd etdi. "Xidmət müddətində çalışmışam ki, seçilim, verilən əmr və tapşırıqları vaxtlı-vaxtında yerinə yetirim, komandir və əsgər yoldaşlarımın hörmət və rəğbətini qazanım. Şükürlər olsun ki, buna nail ola bildim. Burada qazandığım dostları heç zaman unutmayacam. Mülki həyatda da onlarla əlaqə saxlayıb, keçirdiyimiz xoş günlərdən danışacağıq. Tərxis olmağımıza baxmayaraq, hər zaman Vətənimiz üçün əsgərik və Ali Baş Komandanımızın döyüş əmri ilə ordu sıralarına qatılmağa, düşmənlərimizdən qisasımızı almağa hazırıq".

Digər həmsöhbətim əsgər Orxan Bayramov isə Vasif Paşayevlə yaranan münasibətləri ailə dostluğuna çevirərək, bir ömür boyu davam etdirmək niyyətində olduğunu bildirdi. "Mən sevinirəm ki, xidməti dövründə çoxlu dost qazanmışam. Bu gün fəxr edirəm ki, ordu sıralarında doğma torpaqlarımızı müdafiə edənlərin sırasında oldum, həm də özümə ömür dostları qazandım".

Oğullarımızın bir-birinə arxadayaq olması, sözün əsl mənasında, əsgər dostluğudur. Həyatlarının ən qaynar, yaddaqalan zamanında ordu həyatı onların əsgər qardaşlığını ailə dostluğuna çevirib. İnanıram ki, belə bir dostluq illərin sınağından da möhkəmlənəcək, əbədi olacaq.

- Xidmətimi başa vurduğum üçün etiraf edim ki, sevinirəm, çünki ailəmin yanına başıuca qayıdıram, qəhərlənirəm ki, ikinci ailəmdən ayrılıram. Əsgər yodaşlarım üçün darıxacam. Buna baxmayaraq, tezlez gəlib onlara baş çəkəcəm. Əsgərlik - kişilik məktəbidir, deyirlər. Bu məktəb insana həyat dərsi keçir, onda mərdlik, qorxmazlıq formalaşdırır. Cəsur olmaq, dostluğa sadiq qalmaq, verilən tapşırıqları tam məsuliyyətlə yerinə yetirmək kimi müsbət xüsusiyyətlər aşılayır. Çətinliyə dözməyi, müxtəlif şəraitlərə uyğunlaşmağı bacarırsan. Düşmənimə olan nifrətin günügündən daha da artır. Səngərdə dayanarkən günahsız qətlə yetirilən Zəhra və Fariz kimi balalarımız, torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını qurban verən Mübariz, Fərid, Urfan, Əbu Bəkir kimi mərd oğullarımız hər an gözlərinin önündə canlanır. Onların qisasını almaq üçün Ali Baş Komandanımızın döyüş əmrini səbirsizliklə gözləyirik. Bir arzu ilə evə qayıdıram: döyüş əmri olan kimi geri qayıdıb, əsgər qardaşlarımla çiyin-çiyinə döyüşə atılım, - bu sözləri Bərdə rayonundan ordu sıralarına çağırılan əsgər Məhəmmədəli Mustafayev dedi.

Əsgər İlham Lətifov da tez bir zamanda torpaqlarımızın geridə qalan hissəsini işğaldan azad etmək üçün hərbi hissəyə qayıtmaq arzusu ilə tərxis olduğunu bildirdi. "Xalqımıza Böyük Qələbə sevincini yaşadanların sırasında olmaq arzumdur. Mülki həyatda dostlarıma vətənpərvərlikdən, Vətən sevgisindən, səngər həyatından, hərbin bütün gözəlliklərindən danışacağam. Bütün yoldaşlarıma deyəcəyəm ki, bizim ən birinci və ən vacib borcumuz hərbi xidmət keçmək, bacarıqlı və cəsur əsgər olmaqdır. Çünki bizləri Laçınımız, Kəlbəcərimiz, Şuşamız.... həsrətlə gözləyir. Bu həsrətə də tez bir zamanda son qoymalıyıq. Bizləri döyüşçü kimi yetişdirən, nizam-intizamlı olmağı öyrədən komandirlərimizə hər zaman minnətdar olacağam".

Gəncə şəhərindən hərbi xidmətə çağırılan əsgər Ərkan İskəndərov komandiri leytenant Kənan Məmmədovun əsgərlərə münasibətindən, onun kimi zabitlərin sayəsində hərbi sirlərə dərindən yiyələnməsindən, hərbi qayda-qanunları, silahla davranma qaydalarını mənimsəməsindən söhbət açdı. "Vətənimizə nümunəvi xidmət etmək, düşmənlə təmas xəttində doğma torpaqlarımızı qorumaq mənim üçün şərəfdir. Düzdür, səngərdə xidmət etmək çətindir. Lakin bu çətinlikləri bizlərə hiss etdirməyən komandirlərimizdir. Leytenant Kənan Məmmədov belə zabitlərdəndir. Zabitlərimizin sayəsində Vətən qarşısında borcumuzu layiqincə yerinə yetirmişik. Kənan Məmmədov bizlərə həm komandir, həm də qardaş olub. Sevinirəm ki, belə mərd, cəsur komandirlərin tabeçiliyində xidmət etmişəm. Bu müddətdə Hərbi anda sadiq qalaraq komandirlərimizin əmr və tapşırıqlarına daim və sözsüz tabe olmuşuq. İnanıram ki, xidmətimizlə onların hörmət və rəğbətini qazanmışıq".

Əsgər Adil Qədirli xidmət dövründə ən yaddaqalan və ən qürurverici günlərindən danışdı. "Hər zaman xatırlayacağım gün, hərbi andiçmə mərasimi olub. Həmin gün valideynlərimizin qürurlu baxışları altında bir əlim əsgər yoldaşımın çiynində, bir əlim silahımda Vətənə sədaqət andı içdik. İlk dəfə döyüş növbəsinə çıxdığım gün də yadımdan çıxmaz. Əsgər yoldaşımdan döyüş növbətçiliyini təhvil aldım. Gözüm nişangahda, barmağım tətikdə düşmən qarşısında dayanmaqdan çox qürurlandım".

Daha sonra isə Adil hərbi xidməti həyat məktəbi adlandırdı. "Bu məktəbdə hər kəs vacib keyfiyyətlərə yiyələnir. Həm döyüşçü kimi yetişir, həm də cəmiyyətə yararlı vətəndaş kimi. Bütün müsbət keyfiyyətləri əldə etməyimizdə komandirlərimizin rolu danılmazdır. Onların sayəsində Vətənimizin keçmişini dərindən öyrənib, döyüş, atəş, fiziki, mənəvi-psixoloji durumumuzu yüksəltmişik. Bunların nəticəsidir ki, keçirilən təlimlərdə müvəffəqiyyətlər əldə etmişik".

Əsgər Xəyal Məmmədov, Vünyamin Məhəddinov, Vasif Paşayev və digərləri tərxis olduqlarına baxmayaraq hər zaman Azərbaycan Ordusunun əsgəri olduqlarını bildirdilər. Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə doğma torpaqlarımızı düşməndən azad edib, həmyerlilərimizin canlarına susayan erməniləri döyüş meydanında məhv edəcəkləri günü səbirsizliklə gözlədiklərini vurğuladılar. Həmin gün uzaqda deyil...

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Hərbi Hava Qüvvələrində "Konflikt jurnalistikası məktəbi"nin auditoriya təlimi keçirildi



*Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin təşkil etdiyi "Konflikt jurnalistikası məktəbi" adlı birgə layihənin Hərbi Hava Qüvvələrinə məxsus "N" hərbi hissəsində növbəti auditoriya təlimi keçirildi.*

Hərbi hissənin zabiti Murad Əliyev bildirdi ki, Azərbaycan xalqının ulu öndəri, Azərbaycan Ordusunun xilaskarı və qurucusu Heydər Əliyevin müəyyənləşdirdiyi vəzifələr onun siyasi irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə də uğurla həyata keçirilməkdədir. Bu gün ordumuzun maddi-texniki bazası daha da möhkəmlənib. Son illər ordumuzun qüdrətinin artırılması istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün maddi-texniki təchizat və döyüş qabiliyyəti baxımından Azərbaycan Ordusu nəinki regionun, eləcə də dünyanın ən güclü ordularından biridir. Ordumuz ən müasir silah-sursatlarla, texniki avadanlıqlarla təchiz edilib. Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin əmri ilə istənilən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməyə qadirdir".



Zabit təlimalanlara onu da bildirdi ki, müasir texnoloji avadanlıqlarla təchiz edilən Hərbi Hava Qüvvələrinin hərbi hissələri döyüş növbətçiliyinin yüksək səviyyədə aparılması, qoşunların qısa müddətdə döyüş vəziyyətinə gətirilməsi, eləcə də istənilən iqlim şəraitində və sutka ərzində düşmənin hava hədəflərinin izlənilməsi, kəşfiyyat məlumatlarının toplanılması, təhlili, qərarların vaxtında qəbulu və aviasiya qüvvələrinin döyüş tapşırıqlarını maksimal effektiv icra edirlər.

Tədbir iştirakçılarına mütəxəssislər tərəfindən Hərbi Hava Qüvvələrinin yaranma tarixi, arsenalında olan silahlardan, hərbi helikopterlərdə rabitə və radiotexniki vasitələrdən istifadə qaydaları, yerüstü müşahidə sistemləri, hava təhlükəsizliyi və cavabdehlik zonası, döyüş təyyarələri, hava hücumundan müdafiə vasitələri haqqında məlumat verildi. Həmçinin hava məkanındakı kəşfiyyat məlumatlarının toplanılması, təhlili qaydaları izah edildi. Vurğulandı ki, bu gün ən yüksək texnologiya ilə təchiz edilmiş uçuş aparatları istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Təlimalanlara hərbi pilotların fəaliyyətləri barədə də geniş məlumat verildi.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri, inzibati ərazi bölgüsü, iqtisadi inkişafı.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**

**1. Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri və inzibati ərazi bölgüsü.**

**2. Dövlətimizin iqtisadi inkişaf strategiyası.**

### *Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri və inzibati ərazi bölgüsü*

Hər bir xalqın, millətin xoşbəxtliyi ilk növbədə onun müstəqil və güclü dövlətə malik olması ilə müəyyən edilir. Dövlət müstəqilliyi hər şeydən əvvəl onu qazanmış xalqın özünütəsdiqi və milli özünüdərki üçün bir şansdır. Belə bir tarixi şansdan faydalanan və ondan səmərəli istifadə edən xalqlar həm milli inkişafa nail olur, həm də sahib olduqları dövlətin dayaqlarını möhkəmləndirə bilirlər.

Azərbaycan Respublikasının siyasi sistemi milli və tarixi şəraitin xüsusiyyətlərini əks etdirməsi ilə səciyyəvidir. Onun meydana gəlməsində və fəaliyyətində müxtəlif amillər rol oynamış və oynamaqdadır. Siyasi sistemin fəaliyyətinin formalaşmasına əhalinin siyasi mədəniyyətinin xüsusiyyətləri mühüm təsir göstərir. Azərbaycanda hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulub və onun təkmilləşdirilməsi üçün etibarlı zəmin hazırlanıb. Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş demokratik dövlət quruculuğu prosesi bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Çıxışlarının birində dövlət başçısı İlham Əliyev demişdir: Bu gün Azərbaycanda bütün fundamental azadlıqlar - siyasi azadlıq, media azadlığı, azad internet, din azadlığı təmin edilib. Bu isə inkişafın əsası və təməli deməkdir"

Ümumiyyətlə, Azərbaycan Respublikasının siyasi sisteminin struktur formalaşması əsasən 1995-ci il noyabrın 12-də ölkənin yeni Konstitusiyasının qəbul edilməsi ilə başa çatmış oldu. Konstitusiyaya uyğun olaraq Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika kimi müəyyənləşmişdir.

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- xalqın iradəsinin ifadəsi olaraq qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
- ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Konstitusiyada göstərildiyi kimi, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Sərbəst və müstəqil şəkildə öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Konstitusiyanın 7-ci maddəsinə əsasən, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq, Azərbaycan Respublikasında müstəqil şəkildə formalaşan və fəaliyyət göstərən üç hakimiyyət qolu qərarlaşmışdır: qanunvericilik, icra və məhkəmə hakimiyyəti. Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini həyata keçirən orqan Milli Məclis, icra hakimiyyətini həyata keçirən Prezident, məhkəmə hakimiyyətini həyata keçirən orqan Azərbaycan Respublikasının məhkəmələridir.

Azərbaycanın siyasi sistemində yerli özünü idarəetmə orqanları olan bələdiyyələr də mühüm yer tutur. Bu institut yeni yaranmasına baxmayaraq böyük perspektivə malikdir.

Bütün müasir siyasi sistemlər kimi, Azərbaycanın siyasi sisteminə də çoxpartiyalılıq, plüralizm xasdır. Siyasi partiyalar qanunverici və yerli özünü idarəetmə orqanlarında təmsil olunmaq vasitəsi ilə dövlət hakimiyyətinin həyata keçirilməsində iştirak etmək imkanına malikdirlər.

**Azərbaycan Respublikasının dövlət rəmzləri**

Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Konstitusiyasının 23-cü maddəsində göstərildiyi kimi, Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

**Dövlət bayrağı**

Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

**Dövlət gerbi**

Azərbaycan Respublikasının Dövlət gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.

**Dövlət himni**

1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Azərbaycanın Dövlət himni kimi təsdiq edildi.

**Ərazi quruluşu və inzibati ərazi bölgüsü**

Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Qanun Azərbaycan Respublikasının ərazi quruluşunun və inzibati ərazi bölgüsünün, habelə ərazi vahidlərinin qeydiyyatının, sərhədlərinin müəyyən edilməsinin və dəyişdirilməsinin, adlandırılmasının və ya onların adlarının dəyişdirilməsinin, hüquqi əsaslarını, eləcə də ərazi quruluşu və inzibati ərazi bölgüsü ilə bağlı digər məsələlərin tənzimlənməsində dövlət orqanlarının və bələdiyyələrin səlahiyyətlərini müəyyən edir.

Qanunda istifadə olunan əsas anlayışlar - ərazi quruluşu, inzibati ərazi bölgüsü, yaşayış məntəqəsi, ərazi vahidi, inzibati ərazi vahidi anlayışlarıdır.

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəridir.

Ərazisi 2200 kv. km olan Bakı şəhəri özündə 11 inzibati rayonu, 5 şəhər tipli qəsəbəni birləşdirir.

### *Dövlətimizin iqtisadi inkişaf strategiyası*

Dövlət müstəqilliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafına şərait yaratdığı kimi, milli iqtisadiyyatın inkişafı və güclənməsi də dövlət müstəqilliyinin dayaqlarını daha da möhkəmləndirir. Dövlət müstəqilliyinin gücləndirilməsi iqtisadiyyatımızın milli maraqlara uyğun inkişaf etdirilməsinə şərait yaratmışdır. Azərbaycanın təkcə dövlətçilik deyil, həm də iqtisadi inkişaf tarixinin ən parlaq və şərəfli dövrü ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev 1993-cü ildən - müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk dövrdən müasir dünya düzəninin inkişaf meyillərini uzaqgörənliklə qiymətləndirərək, çağdaş cəmiyyətin qəbul etdiyi inkişaf yolunu seçdi. Bu yol isə iqtisadiyyat üzərində dövlət inhisarçılığının aradan qaldırılmasından, sahibkarlığın inkişaf etdirilməsindən və iqtisadiyyatın liberallaşdırılmasından başlayır.

1994-cü ildə isə "Əsrin müqaviləsi"nin imzalanması ilə Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının əsası qoyuldu. Bu strategiya çərçivəsində həyata keçirilmiş tədbirlər, o cümlədən Dövlət Neft Fondunun yaradılması məhz davamlı inkişafın təmin edilməsinə, dövlətimizin iqtisadi və sosial dayaqlarının möhkəmləndirilməsinə yönəldildi.

Ulu Öndərin imzaladığı "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" 2002-ci il 10 sentyabr tarixli, "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" 2002-ci il 28 sentyabr tarixli fərmanlar özəl sektorun inkişafında mövcud olan problemlərin kompleks və sistemli həllini, sahibkarlığın sürətli inkişafı üçün əlverişli iqtisadi və institusional mühitin yaradılmasını, müxtəlif dövlət orqanlarının nəzarət funksiyalarının məhdudlaşdırılmasını nəzərdə tuturdu.

Son 15 il sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə xarakterizə edilməklə Azərbaycan iqtisadiyyatı üçün olduqca uğurlu olmuşdur. Əldə olunan uğurları, ilk növbədə, ölkə rəhbərliyinin siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanılması, dövlət idarəçiliyinin səmərəli təşkili, vahid dövlət siyasətinin həyata keçirilməsi, iqtisadi inkişafda əsas hədəflərin dəqiq müəyyən edilməsi, islahatların davamlı xarakter daşıması, cəmiyyətin real ehtiyaclarının ödənilməsinə yönəldilmiş dövlət proqramlarının reallaşdırılması təmin etdi.

Azərbaycanda davamlı inkişaf neft gəlirlərinin prioritet istiqamətlər üzrə səmərəli istifadə edilməsindən asılıdır. Bu baxımdan 2004-cü ildə "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"nın (2005-2025) dövlət başçısı tərəfindən təsdiqi xüsusi olaraq qeyd edilməlidir. Bu strategiya neft və qaz gəlirlərindən istifadənin əsas prinsiplərini və ortamüddətli xərclər siyasətini müəyyənləşdirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli Fərmanı ilə hökumətin iqtisadi blokuna ilk tapşırıqlarını vermişdir. Ölkəmizin sosial-iqtisadi həyatının ən aktual problemlərini özündə əks etdirən bu Fərmanı dövlət başçısının iqtisadi komandaya ilk tapşırıqlarının məcmusu kimi qiymətləndirmək olar.

Hazırda islahatların texnologiyası da təkmilləşməkdədir. Belə ki, son 15 ildə 201 proqram xarakterli sənəd, o cümlədən 12 Konsepsiya, 12 Milli Strategiya, 12 Strateji Yol Xəritəsi, 94 Dövlət Proqramı, 10 Milli Fəaliyyət Planı, 23 Tədbirlər Planı, 21 Tədbirlər Proqramı, 17 Milli Plan və proqramlar qəbul edildi.

Dünya ölkələri, xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasına layiqli töhfələr verdi. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TANAP və TAP layihələri, həmçinin "Şahdəniz-2" layihəsi üzrə yekun investisiya qərarının imzalanması xüsusi olaraq qeyd edilməlidir.

Ölkəmizin sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurların davamlılığını təmin etmək məqsədi ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul edilmişdir. Konsepsiya çərçivəsində qeyri-neft sektorunun inkişafı, nəqliyyat, tranzit və s. məsələləri əhatə edən 53 sənəd təsdiq edilmiş, hal-hazırda icrası təmin olunmaqdadır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və siyasi sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizin hərtərəfli inkişafı üçün böyük imkanlar və yeni-yeni perspektivlər açır.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

Mehdi Hüseynzadə - 100

# Nəsillərə örnək şanlı döyüş yolları

*Müsahibimiz Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə haqqında çəkilmiş "Təxəllüsü Mixaylo" sənədli filminin rejissoru Tahir Əliyevdir.*



**- Tahir müəllim, Mehdi Hüseynzadə haqqında sənədli film çəkmək ideyası necə yarandı?**

- "Təxəllüsü Mixaylo" sənədli filmi Mədəniyyət və Turizm Nazirliyinin "Salnamə" kinostudiyasında çəkilib. Mehdi haqqında müxtəlif vaxtlarda, müxtəlif filmlər lentə alınıb. Lakin həmin filmlərdə bədiiliyə daha geniş yer verilib. Eyni zamanda, ssenari müəllifləri və rejissorlar Həsən Seyidbəyli və İmran Qasımovun ssenariliyi ilə çəkilən "Uzaq sahillərdə" bədii filmindən kənara çıxa bilməyiblər. "Lider" televiziyasının hazırladığı "Uzaq sahillərin əfsanəsi" filmində də bədiilik qabarıq verilib. Ancaq "Uzaq sahillərdə" filmindən bir kadr, bir epizod belə "Təxəllüsü Mixaylo" sənədli filmində yoxdur. Mehdi Hüseynzadə haqqında film çəkmək olduqca şərəfli işdir. Çəkilişə başlamazdan öncə filmin bədii rəhbəri Tofiq Məmmədovla Mehdi Hüseynzadə haqqında cəmiyyətin bilmədiklərini və naməlum həqiqətləri ortaya çıxarmaq qərarına gəldik. Ona görə də İkinci Dünya müharibəsində şanlı döyüş yolu keçmiş kəşfiyyatçı partizan haqqında böyük tədqiqatlar apardıq. Rusiya Dövlət Kino Arxivindən Mehdinin Sovet İttifaqı Qəhrəmanı adı almasında rolu olan insanların və hadisələrin xroniki ardıcıllığını özündə əks etdirən materiallar əldə etdik. Daha sonra filmin ssenari müəllifi İntiqam Qasımzadə ilə birgə işə başladıq. Təəssüf ki, Mehdi Hüseynzadə ilə birgə döyüşən azərbaycanlı partizanlardan heç kim sağ qalmamışdı. Cavad Həkimli, Cabbar Quliyev, Mirdamət Seyidov, Mikayıl Qulubəyov, Fərrux İsmayılov necə illərdir ki, dünyalarını dəyişiblər.

**- Bəs, "Mixaylo"nun Sloveniyadan olan partizan yoldaşlarından sağ qalan varmı?**

- Biz filmi 2008-ci ildə Mehdi Hüseynzadənin 90 illik yubileyi ilə əlaqədar çəkmişdik. Həmin il Mehdinin 10 nəfərə yaxın sloven partizan yoldaşı ilə görüşdük. Artıq onların bir çoxu dünyalarını dəyişib. Onların hər birinin söhbətini kameranın yaddaşına köçürdük. Keçmiş partizanların söhbətləri Mehdi Hüseynzadənin əsl qəhrəman olduğunu təsdiqləyir. Mehdinin ən yaxın dostu, şəxsən onun dəfnində iştirak edən sloveniyalı Velikoniya ilə də görüşmək imkanı qazandıq. Cəbhə yoldaşı Çiril Zupanasın Mehdi haqqında yazdığı, maraqlı xatirələrin əks olunduğu kitabı da əldə edə bildik. Bütün təşkilati məsələlərdə bizə yardımçı olduqlarına görə qəzetiniz vasitəsilə Avstriyadakı səfirliyimizin əməkdaşlarına təşəkkürümü bildirirəm. Filmin çəkilişlərini əsasən Avstriya, Sloveniya və İtaliyada apardıq. Sabiq partizanlar bizə "Uzaq sahillərdə" filmindən tanış olan Anjelikanın da sağ olduğunu söyləyəndə çox təəccübləndik.

**- O zaman Anjelika ilə görüşə bildinizmi?**

- Anjelika Mehdinin ən yaxın partizan silahdaşlarından biri olub. Onlar dəfələrlə uğurlu əməliyyatları birgə həyata keçiriblər. Çətin tapşırıqların yerinə yetirilməsinə birgə yollanıblar. Anjelika əslən sloveniyalıdır. Biz çox təkidlərdən sonra Anjelika xanımla görüşə bildik. Anjelika 1944-cü ildə Mehdi və partizan dostları ilə birlikdə çəkdirdiyi şəkli də bizə yadigar olaraq verdi. O zaman onun 84 yaşı var idi. O, bu yaşda da çox gözəl idi. Anjelika ilə bizim çəkiliş qrupu Mehdinin həlak olduğu yerdə görüşdü. Çox təsirli və yaddaqalan məqamlar idi. Anjelika "Mixaylo"nun məzarı önündə göz yaşlarını saxlaya bilmədi. Artıq o vaxtdan 10 il keçib. Yəqin o da dünyasını dəyişib.

**- Sloveniyada "Mixaylo"nu xatırlayan varmı?**

- Mehdini Sloveniyada hədsiz dərəcədə sevirlər. Onun qəhrəmanlığı yerli camaat tərəfindən əfsanələşib. Mehdi Hüseynzadə ilə yanaşı, Cavad Həkimli, Mirdamət Seyidov da əfsanəvi döyüşçülər kimi xatırlanır. Sloveniyalılar Mehdini sözün əsl mənasında əbədiləşdiriblər. Novoqoritsa şəhərinin girəcəyində və magistral yolun kənarında Mehdi Hüseynzadənin heykəli, həlak olduğu yerdə isə barelyefi qoyulub. Sloveniyada Azərbaycan adını eşidərkən hamı "Mixaylo"nu xatırlayır. Mehdi Hüseynzadə Azərbaycan xalqının oğlu, sloven xalqının isə qəhrəmanıdır.

**- Araşdırmalar zamanı "Mixaylo"nun hansı şəraitdə həlak olmasını dəqiqləşdirə bildinizmi?**

- Mehdi Hüseynzadə əməliyyatların birində qəhrəmancasına həlak olub. "Uzaq sahillərdə" filmindən tamaşaçıya tanış olan Mehdinin dostu Vasilinin əsl adı Sar olub. Mehdi onunla birgə əməliyyatdan qayıdarkən ikimərtəbəli evin çardağında gizlənirlər. Bu zaman xəbər gəlir ki, almanlar artıq Vitovli kəndinə hücum edib və onlar "Mixaylo"nun axtarılarına başlayıblar. Mehdi ilə Sar almanlarla döyüş olacağını gözləmirmiş. Sar çardaqdan aşağı enərkən almanlar onu vururlar. Bunu görən "Mixaylo" pəncərədən tullanır və bu zaman snayper gülləsinə tuş gəlir. Ağır yaralanan "Mixaylo" kənddən çıxmağa müvəffəq olsa da, çoxlu qan itirdiyindən yoluna davam edə bilmir. "Mixaylo" dünyasını dəyişir. Almanlar nə qədər axtarsalar da, onun cəsədini tapa bilmirlər. Cəsur partizanın cəsədini 12 yaşlı bir qız Vitovli kəndindəki arxın kənarından tapır və "Mixaylo" nu orada dəfn edirlər. Həmin qızı da filmə çəkmişik. Üç gün sonra Cavad Həkimli "Mixaylo"nun cəsədini artıq burada saxlamağın mümkünsüzlüyünü və partizanlara almanların "Mixaylo"nun həlak olmasından xəbər tutduğunu deyir. Partizan dostları Mehdinin nəşini çıxarıb 30 kilometr kənarda yerləşən Çepovan kəndində Qardaşlıq qəbiristanlığında dəfn edirlər. Bu gün həmin qəbiristanlıqda birinci məzar Mehdi Hüseynzadənin məzarıdır. Mehdi 1944-cü il noyabrın 2-də qəhrəmancasına həlak olub. Onun qəbirüstü abidəsinin üzərinə "Mehdi Mixaylo" sözləri həkk olunub.

**- Mehdinin nəşinin Azərbaycana gətirilməsi nə dərəcədə realdır?**

- Fikrimcə buna heç bir ehtiyac yoxdur. Avropada Azərbaycanın nə qədər nişanı olsa, bu, biz azərbaycanlılar üçün bir o qədər başucalığıdır. Mehdi Hüseynzadə onsuz da Azərbaycan xalqının igid oğludur. Qoy onun qəbri Sloveniyada qalsın. Orada olduğumuz bir həftə elə bil "Mixaylo" həftəsi idi. Bütün partizanlar, Vitovli, Çepovan qəsəbələri, Şenpas kəndi ayaq üstə idi. Biz ora gələndə bütün partizan yoldaşları iş-güclərini atıb "Mixaylo"nun abidəsinin ətrafına yığışmışdılar. Hər biri "Mixaylo"nu xatırlayır və onunla bağlı maraqlı xatirələrini danışırdılar. "Mixaylo" o insanların beyninə qəhrəman kimi həkk olunub. Biz orada "Mixaylo"nun rabitəçisi ilə də görüşdük. O zaman onun 90 yaşı var idi. Artıq o da dünyasını dəyişmiş olar. Bu gün slovenlər o torpaqda yaşadıqlarına görə "Mixaylo"ya borcludurlar. Sloveniyada onu Mehdi Hüseynzadə kimi deyil, Mehdi Mixaylo kimi tanıyırlar. Sloveniyadan Mehdinin 9-a yaxın şeirini tapıb gətirmişəm. Mehdi Hüseynzadə "Qürbətzadə" ləqəbi ilə şeirlər yazıb. Bu insan təkcə döyüşçü yox, həm şair, həm də gözəl rəssam olub.

**- Sənədli filmdə hansı faktlar ilk dəfə təqdim olundu?**

- Əvvəlcə onu qeyd edim ki, bizim filmimiz sırf arxiv sənədləri əsasında çəkilib. Yalnız filmin əvvəlində Mehdinin uşaqlıq illəri bədii xətt üzərində verilib. Çəkilişlərin bir hissəsi Novxanıda, Şüvəlanda baş tutdu. İtaliyada, Avstriyada, Sloveniyada çəkilişlər zamanı rast gəldiyimiz Avropa müqavimət hərəkatında iştirak edən 200 nəfərdən artıq azərbaycanlının məzarı da ilk dəfə bu filmdə təqdim olundu. Bundan başqa, filmdə əks olunan nadir şəkilləri Sloveniyadan Mehdinin cəbhə yoldaşlarından götürmüşdük. "Uzaq sahillərdə" filmi də çəkilməzdən əvvəl rejissor Tofiq Tağızadə, operator Əlisəttar Atakişiyev Mehdinin vuruşduğu məkanlara getmişdi. Mehdinin adı ilə bağlı olan səhnələri görəndən sonra gəlib burada həmin dekorasiyaları yaratmışdılar. Biz isə tamaşaçıya orijinal, reallığı təqdim etdik. Biz orada Mehdinin partlatdığı kinoteatrı və kazino binasını da lentə aldıq. Bu kadrlar filmdə öz əksini tapır. Həmin binalar indi də qorunur. İtaliyanın Tries şəhərində Mixaylonun partlatdığı körpü də ilk dəfə lentə alınıb, tamaşaçılara təqdim olunub. Həmin şəhər o zaman Sloveniyanın ərazisi olub. İndi isə şəhərin yarısı İtaliyanın, yarısı isə Sloveniyanın ərazisi sayılır.

**- Mixaylo həm də legioner həyatı yaşayıb...**

- Əldə etdiyimiz materiallardan belə məlum oldu ki, Mehdi sonuncu məktubu Stalinqrad cəbhəsindən bacısına yazıb. O Stalinqrad uğrunda gedən döyüşlərin birində əsir düşüb. Onun əsir olarkən saxlandığı Avstriyanın Mauthauzen həbsxanasını da lentə aldıq. Həmin həbsxanada olarkən bizi vahimə basırdı. Bu həbs düşərgəsində insanlar diri-diri yandırılıb. Azərbaycanlı əsirlər həbsxanada olduğu müddətdə 160-cı alman diviziyasının komandiri polkovnik İsrafilbəy İsrafilbəyov olub. Həmin vaxt Məmməd Əmin Rəsulzadə, İsrafilbəy İsrafilbəyov və Fətəli bəy Düdənginski azərbaycanlı əsirlərlə görüşüblər. Onlar soydaşlarımızı ölkəmizin müstəqilliyi uğrunda mübarizə aparmağa səsləyiblər. Mehdi bir qrup azərbaycanlı əsirlə birgə bu təklifi qəbul edir. O, alman və italyan dillərini mükəmməl bildiyinə görə Düdənginskinin səyi nəticəsində Cavad Həkimli ilə birgə xüsusi məktəbdə təhsil alır.

**- Mixaylonun sonrakı taleyində hansı hadisələr baş verir?**

Xüsusi kurs keçən Mehdi 162-ci piyada diviziyasında kəşfiyyat idarəsinin rəisi təyin edilir. Həmin vaxt faşist Almaniyasının rəhbəri Adolf Hitlerin Azərbaycana müstəqillik vermək fikri yox idi, yalnız 1945-ci il martın 27-də almanlar Azərbaycanın müstəqilliyini tanıyırlar. 1944-cü ildə Böyük Vətən müharibəsində artıq hərbi və siyasi vəziyyət dəyişir. Müharibədən 70 ildən artıq zaman keçməsinə baxmayaraq hələ də o dövrlə bağlı qaranlıq məqamlar qalmaqdadır. Gələcəkdə araşdırılması tələb olunan faktlardan biri də alman ordusunda qulluq edən azərbaycanlıların bir qisminin partizanların tərəfinə keçməsidir. 1945-ci ildə Stalin tərəfindən Mehdi Hüseynzadəyə və ümumən bütün əsirlərə ölüm hökmü kəsilir, onlar haqqında axtarış elan olunur. Moskva o zaman "Mixaylo"nun həlak olduğunu bilmirdi. Həmin dövrdə onunla birgə Sloveniyada vuruşan azərbaycanlıların hamısı həbsxanada idilər. Əsirlikdən gələnlərin hamısını həbs etmişdilər. Yalnız İtaliya partizanlarının rəhbəri Palmiro Tolyati və Yuqoslaviya Kommunust Partiyasının lideri Broz Tito SSRİ-nin rəhbəri Stalinlə görüşüb keçmiş partizanların fəaliyyətini yüksək dəyərləndirdikdən sonra keçmiş əsirlərə münasibət yavaş-yavaş dəyişməyə başlayır. O cümlədən Sovet rəhbərliyinə Mehdi Hüseynzadənin qəhrəmanlıqları haqqında da məlumat çatdırılır. Mehdi Hüseynzadənin işi araşdırıldıqdan sonra onun haqqında bütün sənədlər toplanır. 1958-ci ildə əfsanəvi "Mixaylo" ya Sovet İttifaqı Qəhrəmanı adı verilir.

**- Hərb tarixi mövzusu xüsusilə, Böyük Vətən müharibəsi mövzusu sizin yaradıcılığınızda xüsusi yer alır...**

- Hərb tariximizin Böyük Vətən müharibəsi dövrü məni həmişə maraqlandırıb. Onu da deyim ki, "Təxəllüsü Mixaylo" filmindən sonra "9-cu korpus", "Unudulmuş partizan" filmlərini çəkdik. Ümumilikdə Böyük Vətən müharibəsi mövzusunda 9 filmin rejissoru olmuşam. "Təxəllüsü Mixaylo" filmimiz 5-ci beynəlxalq kino festivalında mükafata layiq görüldü. Qələbənin 70 illiyi ilə əlaqədar olaraq Böyük Vətən müharibəsi mövzusunda kinomateqrofiyaya verdiyim töhfələrə görə mənə Rusiya Prezidentinin mükafatı təqdim olundu.

**- "Təxəllüsü Mixaylo" sənədli filmi ekranlarda nə zaman nümayiş olundu?**

- 2008-ci ilin noyabrında Azərbaycan kino ittifaqında filmin təqdimatı keçirildi. 2009-cu ilin fevralında isə film ilk dəfə ekranlarda nümayiş olundu. Bir neçə il öncə Müdafiə Nazirliyinin hərbi hissələrində də hazırladığımız müharibə mövzusundakı filmlər, o cümlədən "Təxəllüsü Mixaylo" filmi də geniş nümayiş olundu. Bu filmlərə hərbçilərimiz böyük maraqla baxırdılar. Hərbi vətənpərvərlik təbliğatı baxımından belə filmlərin şəxsi heyətə vaxtaşırı nümayişi zəruridir. Filmlərdəki qəhrəmanlarımız olan ata-babalarımızın şanlı döyüş yolları, şərəfli ömürləri ordumuzun əsgər və zabitlərinə örnəkdir.

**Müsahibəni apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Gəncə Qarnizonu Zabitlər Evinin "Vətən Uğrunda!" səyyar təşviqat dəstəsi "Əsgərə məktub" layihəsi ilə bağlı Mingəçevir şəhərində tədbir keçirib. Kütləvi-vətənpərvərlik tədbirinə Mingəçevir şəhər Texniki Humanitar Liseyinin müəllim və şagirdləri, "N" hərbi hissənin əsgərləri, "ASAN Xidmət" könüllüləri qatılıb.*

# "Əsgərə məktub"




Tədbir iştirakçılarına layihə haqqında ətraflı məlumat verilərək, onun Azərbaycanın müxtəlif regionlarında həyata keçirildiyi diqqətə çatdırılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, layihənin məqsədi ictimaiyyətlə ordu arasında əlaqələri möhkəmləndirmək, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda gecə-gündüz keşik çəkən, Vətənimizi düşməndən qoruyan hərbçilərə mənəvi dəstək olmaq, onların ruh yüksəkliyini daha da artırmaqdır.

Layihəyə qoşulanlar məktub yazmaqla yanaşı, video çəkiliş vasitəsi ilə də ordu sıralarında xidmət edən hərbi qulluqçulara öz arzularını çatdırıblar.

Mingəçevir şəhər Texniki Humanitar Liseyin direktoru Nailə Məmmədova xalq və ordu arasında əlaqələrin möhkəmləndirilməsinə xidmət edən bu layihənin təşkilini yüksək qiymətləndirib.

Tədbirdə iştirak edən "N" hərbi hissənin bir qrup əsgər və zabit heyəti şagirdlərə, gələcəyin əsgərlərinə vətənpərvər olmağı, Vətənin hər qarışını sevməyi tövsiyə edib. Əsgərlərin şagirdlər ilə birgə rəqsləri, vətənpərvərlik ruhunda mahnı ifaları tədbiri daha da yaddaqalan edib.

*Əsgər məktubu*

# Fəxr edirəm ki, əsgərəm!



Salam anacan. Necəsən? Bu məktubu sənə Vətənimə keşik çəkdiyim səngərdən yazıram. Yadındadır, sən həmişə deyərdin ki, oğlum, Vətənin o başı, bu başı olmaz. Anacan əsası odur ki, dayandığım məkandan asılı olmayaraq Vətən qarşısında borcumu yerinə yetirirəm. Burada özümü xoşbəxt hiss edirəm. Xoşbəxtəm, ona görə ki, Azərbaycan xalqı bizə arxalanır, bizə güvənir. Arxada hər yanan işığın səbəbkarı bizləri bilirlər. Xalqımız rahat olanda bizlər də rahat oluruq. Ana, ən böyük arzum xalqımıza Qələbə sevincini bəxş etməkdir. İnanıram ki, Azərbaycan Ordusunun əsgəri kimi tezliklə arzuma çatacam. Ana, Vətənə layiqli xidmət etmək üçün hər cür şərait qurulub. Bizlər üçün ağxalatlı analarımız gözəl təamlı yeməklər bişirirlər. Hər gün müxtəlif növ dadlı təamlardan yeyirik. Yüksək səviyyədə inşa olunan yataqxanamızda rahat yataq yerlərimiz, hər həftə yenisi ilə əvəz olunan yataq dəstlərimiz, asudə vaxtımızı səmərəli keçirmək üçün ideoloji otağımız, isti və soyuq suyu olan əl-üz yuma yerləri də var. Paltarlarımızı camaşırxanada yuyub bizə təhvil verirlər. Bizim isə üzərimizə bir vəzifə düşür - dərslərdə fəal iştirak edib peşəkar komandirlərimizin bizə öyrətdiklərini dərindən mənimsəmək. Anacan, xidmətim əla keçir. Bu gün sə bütün analar qürurla deyə bilərsiniz ki, dövlətimizin güclü ordusu, ordumuzun məğrur əsgərləri var. Mən fəxr edirəm ki, Azərbaycan Ordusunun əsgəriyəm.

Atam, qardaşım necədilər? Tezliklə qardaşım da əsgər olacaq, o da Vətən qarşısında borcunu yerinə yetirəcək. Atama da bildir ki, komandirlərimiz bizdən diqqət və qayğılarını əsirgəmirlər. Nə problemimiz olsa, onlara yaxınlaşırıq. Yuxarı komandanlıq da tez-tez bizimlə görüşə gəlir, şəraitimizlə maraqlanır, hər cür köməklik göstərirlər. Bu arada mən bir qərar vermişəm, inanıram ki, bu qərarımı dəstəkləyəcəksiz. Atam bir dəfə mənə dedi ki, oğlum həyatda özünə elə peşə seç ki, gələcəkdə səni o mövqedə görəndə hamı alqışlasın. Hərbçi olacam, anacan. Çünki bu həyatda alqışlanası, qürur duyulası peşələrdən biri də Vətəni qorumaqdır. Xidmətimi başa vuran kimi sənədlərimi toplayıb yenidən orduya qayıdacam. Bilirəm, məktubu oxuduqca gözlərin yaşaracaq. O yaşın sevinc göz yaşları olduğuna əminəm.

Dostlarım - Vüsala, Amidə, Murada salam söylə məndən. Onların dostluğu mənim üçün əzizdir. Burada da özümə dostlar qazanmışam. Onlar mənim səngər dostlarımdır. Əgər Ali Baş Komandanımız əmr versə, onlarla birgə döyüşlərə atılacağıq, çiyin-çiyinə vuruşacağıq, çətinliklərə sinə gərəcəyik, xalqımıza sevinc bəxş edəcəyik.

Yaxşı anacan, özünüzdən muğayat olun. Məni tanıyan hər kəsə salam deyərsən. Sağ olun.

**Əsgər**
**Aydın YAQUBZADƏ,**
**"N" hərbi hissəsi**

*Hərbi texnikalar, silahlar*

# Müasir "Basurman" piyada döyüş maşını

*Rusiya Müdafiə Nazirliyi piyadaların döyüş (PDM-1) maşınının sınağını başa çatdırmaq üzrədir. Verilən məlumata görə, modernləşdirilmiş döyüş maşını "Basurman" adını alıb. "Basurman" PDM-1-in layihə işlərinə "Uralvaqonzavod" Elmi-İstehsalat Korporasiyasının müəssisəsində başlanılıb.*



Modernləşdirilməsi zamanı 82A ZTR-nin döyüş modulundan istifadə edilib. Onun modulu iki düz stabilizatorla, elektrik ötürücüsü ilə təchiz edilib ki, bu da tuşlayıcıya maşının hərəkəti zamanı atəş açmağa imkan verir. Bundan başqa maşında sutka ərzində işləyən kombinə edilmiş TKN-4QA nişangahı quraşdırılıb ki, bu da gecə və gündüz silahdan istifadə etməyə imkan verir. Nişangahın özü döyüş sursatlarının məsafədən partladılması üçün kanalla təchiz edilib. PDM-1 "Basurman"nın əsas silahlanmasına 30 mm-lik 2A72 avtomatik, sürətlə atəş açan top, köməkçi silahlanmasına isə 7,62 mm-lik PKTM pulemyotu daxil edilib. Topda artilleriya mərmilərindən istifadə etmək olar. Yeni moduldan yüngül zirehli texnika və aşağı hündürlükdə uçan helikopter və pilotsuz uçuş aparatlarına qarşı mübarizə aparmaq olar. PDM-1-in çəkisi 13 ton, şosse yolda sürəti 65 kilometr, ehtiyat hərəkəti 600 kilometr, heyəti 3 nəfərdir. Döyüş maşınına 8 nəfər də desant yerləşdirmək olar.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# "Şəhidlik mənəvi dəyər kimi"

*Oktyabrın 19-da Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı və Biləsuvar rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Şəhidlik mənəvi dəyər kimi" mövzusunda seminar-treninq keçirilib. Bu barədə AZƏRTAC-a Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən (DQİDK) məlumat verilib.*

Tədbirdə Azərbaycan Respublikasının Milli Qəhrəmanı, şəhid Mübariz İbrahimovun atası Ağakərim İbrahimov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev, DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin müdiri Sənan Xəlilov, Biləsuvar rayon İcra Hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Kamil Qurbanlı, ilahiyyatçı ekspert Anar Əliyev, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Əlifağa Murtuzov, din xadimləri, dini icma sədrləri, dindarlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Rayon icra hakimiyyəti başçısı aparatının şöbə müdirinin müavini Kamil Qurbanlı Mənəvi Dəyərlərin Təbliği Fondunun həyata keçirdiyi maarifləndirmə tədbirlərinin böyük əhəmiyyəti olduğunu qeyd edib və gələcəkdə də davamlı olmasının vacibliyini vurğulayıb.

Milli Qəhrəman Mübariz İbrahimovun atası Ağakərim İbrahimov şəhidlərə göstərilən hörmət və ehtirama görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Şəhid atası xüsusilə gənclər arasında bu kimi tədbirlərin keçirilməsinin faydalı olduğunu diqqətə çatdırıb.

Baş gizir Əkbərov Samir Zakir oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 836
Nüsxə 3525